Ümumtəhsil məktəblərinin ibtidai sinifləri üçün Azərbaycan Respublikası Təhsil Nazirliyinin 23 iyul 2007-ci il tarixli, 923 nömrəli əmrilə təsdiq edilmiş fənn kurikulumlarının və tədris planlarının tətbiqi ilə əlaqədar

ƏMR EDİRƏM:

1. Azərbaycan Respublikasının təlim Azərbaycan, rus, gürcü dillərində olan və azsaylı xalqların dilləri öyrədilən ümumtəhsil məktəblərinin I-IV siniflərinin 2011-2012-ci dərs ili üçün tədris planları (əlavə 1-7) və tədris planlarına dair qeydlər (əlavə 8) təsdiq edilsin.

2. Aparatın rəhbəri İ.Pirməmmədov, Kənd rayonları üzrə ümumi təhsil şöbəsi (A.Əhmədov), İqtisadiyyat şöbəsi (Ş.Əliyev), Dərslik və nəşriyyat şöbəsi (F.Şahbazlı) tədris planlarının çap olunub vaxtında yerlərə çatdırılmasını təmin etsinlər.

3. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) bu əmrin əlavələrlə birlikdə "Azərbaycan müəllimi" qəzetində və "Təhsil xəbərləri" məcmuəsində dərc olunmasını təmin etsin.

4. Əmrin icrasına nəzarət nazir müavini İ.İsgəndərova həvalə olunsun.

Misir MƏRDANOV,

Azərbaycan Respublikasının təhsil naziri

4 iyul 2011-ci il

Əlavə:

1. 2011-2012-ci dərs ilində ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün tədris planı (təlim Azərbaycan dilində)

2. 2011-2012-ci dərs ilində ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün tədris planı (təlim rus dilində)

3. 2011-2012-ci dərs ilində ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün tədris planı (təlim gürcü dilində)

4. 2011-2012-ci dərs ilində ləzgi dili öyrədilən ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün tədris planı (təlim Azərbaycan dilində)

5. 2011-2012-ci dərs ilində ləzgi dili öyrədilən ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün tədris planı (təlim rus dilində)

6. 6. 2011-2012-ci dərs ilində azsaylı xalqların dilləri öyrədilən ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün tədris planı (təlim Azərbaycan dilində)

7. 7. 2011-2012-ci dərs ilində azsaylı xalqların dilləri öyrədilən ümumtəhsil məktəblərinin I-IV

sinifləri üçün tədris planı (təlim rus dilində)

8. Tədris planına dair qeydlər